# Rayon icra hakimiyyətinin başçısı növbəti videokonfrans keçirib

***İnzibati ərazi nümayəndələrinin iştirakı ilə keçirilən video müşavirədə rayonda koronavirus pandemiyasına qarşı həyata keçirilən tədbirlər, sanitar-profilaktik və dezinfeksiya işlərinin gedişi, həmçinin xüsusi karantin rejimində məhdudiyyətlərin bir qisminin yumşaldılması barədə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarından irəli gələn məsələlər müzakirə olunub.***

Müşavirəni giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev koronavirus (COVID-19) infeksiyası ilə bağlı ölkədəki mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən Operativ Qərargah tərəfindən xüsusi karantin rejiminin 31 may 2020-ci il saat 00:00-dək uzadıldığını, eyni zamanda əhali arasında virusa yoluxma və xəstələrin sağalma dinamikası nəzərə alınmaqla tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılması barədə qərar qəbul olunduğunu bildirib.



Videomüşavirədəki çıxışında mövcud şəraitdə aparılan dezinfeksiya işlərinə və əhalini narahat edən digər məqamlara toxunan natiq özünütəcrid şəraitində qalan aztəminatlı ailələrə göndərilən ərzaq sovqatlarının çatdırılması məsələsinə də toxunub. Proses zamanı şəffaflığın və çevikliyin tam təmin olunmasının zəruriliyini diqqətə çatdırıb.

Sakinlərlə əlaqə saxlamaq, onların qayğıları və tələbləri ilə daha yaxından maraqlanmaq, vaxtında tədbirlər görmək, yerlərdə ictimai işlərdə çalışan şəxslərin fəaliyyətinə nəzarət etməyin vacibliyini vurğulayan rayon rəhbəri bu sahələrdə qanunazidd hallara yol verilməməsi ilə bağlı yerli icra nümayəndələri qarşısında ciddi vəzifələr qoyub.



Onlayn müşavirədə yerli icra nümayəndələri pandemiya dövründə inzibati ərazilərdə görülmüş işlərlə bağlı hesabat veriblər.

Müşavirədə RİH-nin başçısı rayon sakinlərini şəxsi gigiyenaya, tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə çağırıb, Operativ Qərargahın bütün qərarlarının icrası ilə bağlı onlara öz tapşırıq və tövsiyələrini verib.

**"Qəbələ"**

# Vətəndaşlar onlayn qəbul edilmişdir



Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus pandemiyası ilə bağlı qərarı nəzərə alınaraq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların onlayn qəbulu keçirilir.

Rayon icra hakimiyyətinin inzibati binasında keçirilən belə görüşlərdən biri də mayın 15-də təşkil olunmuşdur. Onlayn qəbulda sakinlərin müraciətləri və şikayətləri RİH başçısı tərəfindən dinlənilmiş, araşdırılmış və həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür.



Vətəndaşların məlumatlandırılması məqsədilə daha öncədən Nazirlər Kabineti yanında Operativ Qərargahın karantin rejiminə dair təlimatına əsasən rayon icra hakimiyyətinin internet saytında RİH-nin başçısına və icra hakimiyyətinin məsul işçilərinə müraciətlərin elektron qaydada və sutka ərzində daimi işləyən telefon nömrələri vasitəsi ilə həyata keçirildiyi barədə məlumat verilmişdir.

**"Qəbələ"**

# Operativ Qərargahın qaydalarına riayət etmək tövsiyə olunub



Koronavirusa yoluxma hallarına yol verilməməsi, bu sahədə aparılan mübarizə tədbirlərinin səmərəliliyinin yüksəldilməsi məqsədilə rayon icra hakimiyyəti tərəfindən tərtib edilən qrafikə əsasən Qəbələ şəhərinin küçə və prospektlərində, səki və meydanlarında, yaşayış binalarında və həmin binaların ətrafında, park və xiyabanlarında pandemiyaya qarşı gündəlik olaraq sanitar-profilaktik və dezinfeksiya işləri həyata keçirilib.

Növbəti sanitar-dezinfeksiya işləri şəhərin Həzi Aslanov küçəsində, 2 gündəlik tələbat malları mağazasında və həmin obyektlərin ətraflarında, 1 müəssisədə və rayonun Nic qəsəbəsində təşkil olunub.

Karantin rejimi ilə əlaqədar həmin gün rayon icra hakimiyyəti tərəfindən aztəminatlı ailələrə və tənha yaşayan yaşlı insanlara da ərzaq yardımı göstərilib.

Eləcə də əhalinin maarifləndirilməsi ilə bağlı sakinlərə şəxsi gigiyena qaydalarını gözləmək, özünütəcrid tədbirlərinə uyğun davranmaq, yalnız ciddi ehtiyac yarandıqda evdən çıxmaq, digər şəxslərlə minimum kontaktda olmaq, insanların sıx toplaşdığı yerlərə getməmək və Nazirlər Kabineti yanında Operativ Qərargahın qoyduğu qaydalara riayət etmək tövsiyə olunub.

**"Qəbələ"**

# Vətəndaşların nəzərinə!

**Hörmətli rayon sakinləri!**

Respublikada koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargahın tapşırıq və tövsiyələrinə uyğun olaraq vətəndaşların rayon icra hakimiyyətində birbaşa qəbulunun həyata kecirilməsi müvəqqəti olaraq dayandırılmışdır.

Hər bir vətəndaş bilməlidir ki, infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər hər bir sakinin sağlamlığının qorunması məqsədilə həyata keçirilir.

Vətəndaşların müraciətləri üçün Qəbələ Rayon İcra Hakimiyyətində fasiləsiz fəaliyyət göstərən telefon nömrələri ayrılmış, elektron poçt ünvanı yradılmışdır. Odur ki, müraciətlərinizi mail@qebele-ih.gov.az elektron ünvanına göndərə və ya 024-205-01-02, 024-205-19-67, 024-205-19-60, 024-205-19-61, 024-205-19-54 telefon nömrələri vasitəsi ilə edə bilərsiniz.

Pandemiya ilə əlaqədar tətbiq olunan karantin rejimi dövründə sakinlərin göstərdikləri əzm və vətəndaş məsuliyyətinə görə onlara bir daha təşəkkür edir və hər bir kəsi karantin rejimi qaydalarına əməl etməyə çağırırıq.

**Qəbələ Rayon İcra Hakimiyyəti.**